# Vətən yaşasın deyə




Ədəbiyyatşünas alim, yazıçı Bahar Bərdəlinin "Qarabağın dayağı Bərdə - Bərdənin qüruru Şəhidlər..." kitabında ölkəmizin dilbər guşələrindən biri olan Bərdənin Qarabağ müharibəsində şəhid olmuş vətənpərvər, cəsur övladlarından bəhs olunur. Eyni zamanda kitabda dahi şairimiz Nizami Gəncəvinin, ulu öndər Heydər Əliyevin, ölkəmizin başçısı İlham Əliyevin Bərdə haqqında dəyərli fikirləri də yer alıb. Azərbaycan Prezidenti İ.Əliyevin qeyd etdiyi kimi, doğrudan da "Bərdə Azərbaycanın qədim şəhəridir, Qarabağımızın mərkəzidir. Tarixən bu diyar Şərqin ən böyük şəhərlərindən biri olmuş, mühüm mədəniyyət mərkəzi kimi tanınmışdır".

Bahar xanım bu böyük həqiqəti kitaba daxil etdiyi "Bərdəm mənim" adlı şeirində dərin səmimiyyətlə poetik şəkildə diqqətə çatdırır:

*Bir qaladır, basılmazdır,*
*Bir incidir, alınmazdır,*
*Gülüstandır, heç solmazdır,*
*Qədim Bərdə - yurdum mənim,*
*Ulu diyar, Bərdəm mənim...*

"Tarixlərin daş yaddaşı, əsrlərin qəm sirdaşı, Nizaminin şövkəti, İsgəndərin heyrəti, Nüşabənin hikməti" olan Bərdədən belə bir qürur hissilə söz açır Bahar xanım...

Vurğulayır ki, Bərdə hər zaman Qarabağın dayaq nöqtəsi, arxa-köməyi olub. Zamanında mədəni və ticari əlaqələrinə görə Bağdadla müqayisə edilən, adı Təbrizlə, Səmərqəndlə, İsfahanla qoşa çəkilən bu qədim şəhər haqqında kitabın ön sözündə əhatəli məlumat verilib. Müəllifin əsas məqsədi ötən əsrin 90-cı illərindən bu yana - birinci və ikinci Qarabağ müharibəsi zamanı Bərdənin və bərdəlilərin erməni təcavüzünə qarşı apardıqları müstəsna mübarizənin gerçəklərini diqqətə çatdırmaqdır. İlahi ədalətin bərpa olunması prosesində əziz həmyerlilərinin şücaətini sevə-sevə tərənnüm edən Bahar Bərdəli 44 günlük döyüşün hər saatının, hər anının böyük qələbə və zəfərlə başa çatmasında bərdəlilərin elliklə səfərbər olunmasını səmimiyyətlə təqdir edir, həmin döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmış eloğlularının mənalı ömür yolunu dərin minnətdarlıq duyğuları ilə vərəqləyir.

Kitaba daxil edilən "Ulu Bərdəm" adlı şeirində B.Bərdəli bir daha vurğulayır ki, tarix salnaməmizdə əbədi iz qoyan Bərdə bu gün də öz yüksəliş yolundadır. Qəhrəman oğulları ilə fəxr edir. O, yenə də uca və uludur. Doğma Qarabağımızın arxası, dayağı olaraq böyük zəfərimizin xoş duyğularını yaşayır.

Vətən yaşasın deyə şəhidlik zirvəsinə ucalan oğullarımızın xatirəsinə dərin ehtiramla qələmə alınıb B.Bərdəlinin yeni kitabı.

*Sərvaz*

**Ədəbiyyat qəzeti.- 19 fevral.- 2022- ci il.- S. 14.**